**Mahir Həmzə oğlu Zeynalov**
**i.f.d.,dos.**
**Elm və Təhsil Nazirliyi, İqtisadiyyat İnstitutu, aparıcı elmi işçi**
**UOT:338.33;334.012; JEL:L20;L29;M20.**

# Azərbaycanda biznesin təşviqi mexanizmləri və onun iqtisadi səmərəsinin qiymətləndirilməsi

***Xülasə***

*Tədqiqatın məqsədi Azərbaycanda biznesin mövcud təşviq mexanizmlərinin təhlili və onların iqtisadi səmərəsinin qiymətləndirilməsidir. Məqalədə biznesin təşviq mexanizmi kimi dövlət tərəfindən güzəştli kreditləşdirilməsi, bank kreditlərinin faizlərinin subsidiyalaşdırılması, investisiya təşviqi mexanizmləri, ölkədə onlayn ticarətin təşviqi, KOB-ların təşviq mexanizmləri verilməklə yanaşı təhlil edilmişdir. Məqalədə tədqiqat üsulu kimi statistik və müqayisəli təhlil, qiymətləndirmə, sistemli yanaşma, qruplaşdırma və elmi ümumiləşdirmə üsullarından istifadə edilmişdir. Tədqiqat işində təhlillər zamanı dövlətin biznesin mövcud təşviqi mexanizmləri üzrə rəsmi statistik məlumatlarından, yerli və xarici rəsmi informasiya mənbələrindən istifadə olunmuş, bu sahədəki iqtisadi ədəbiyyatlara istinad edilmişdir. Habelə biznesin təşviqi mexanizmlərinin iqtisadi səmərəsi qiymətləndirilmiş, nəticələr və təkliflər verilmişdir.*

***Açar sözlər:*** *biznes mühiti***,** *sahibkarlıq fəaliyyəti, mikro, kiçik və orta sahibkarlıq subyektləri, təşviq mexanizmləri, iqtisadi səmərə*

## Problemin qoyuluşu

Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması, sahibkarlığın inkişafına dəstək göstərilməsi dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindəndir. Dövlət müxtəlif iqtisadi yollarla sahibkarlığın inkişafını təşviq edir. Çünki sahibkarlıq fəaliyyətinə iqtisadi artımın əsası kimi baxılır. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”ə əsasən, “iqtisadi artım qabaqcıl və effektiv özəl təşəbbüslərə söykənməli, dövlət və özəl əməkdaşlığı gücləndirilməlidir. Yenilikçiliyə malik özəl sektorda aktivlik daha da canlandırılmalı, qeyri-neft sektorunun maliyyələşməsində özəl sektorun payı artırılmalıdır” [1]. Hökumətin iqtisadi islahatlar üzrə əsas hədəfləri qeyri-neft əmtəə və xidmət ixracının əhəmiyyətli genişləndirilməsi; qeyri-neft emal sənayesinin inkişafının sürətləndirilməsi; biznesin bank kreditlərinə çıxışının genişləndirilməsi; dövlət investisiyalarının iqtisadi səmərəsinin artırılması; özəl investisiyaların dominat rolunun təmin edilməsi; kiçik və orta sahibkarlığın iqtisadi artımım başlıca qüvvəsinə çevrilməsi; şəffaflığın yüksəldilməsi və “gölgə iqtisadiyyatı”nın minimuma endirilməsidir. Bütün bu hədəflər birbaşa sahibkarlıq fəaliyyətilə bağlı olmaqla yanaşı, onun inkişaf etirilməsini əsas prioritet kimi özündə cəmləşdirir. Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən iqtisadi islahatlar, sahibkarlığın dövlət tənzimlənməsi və dəstəklənməsi sahəsində qəbul edilmiş qərarlar, qanunlar, dövlət proqramları ölkədə azad rəqabətə əsaslanan sahibkarlığın inkişafı məqsədlərinə xidmət edir. Əldə edilən nailiyyətləri yüksək qiymətləndirərkən onu da qeyd etmək lazımdır ki, beynəlxalq təcrübəyə uyğun ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması və innovativ sahibkarlığın inkişafı baxımından bu sahədə görüləcək işlər kifayət qədərdir [2, səh.4.].

## Biznesin dövlət tərəfindən güzəştli kreditləşdirilməsi təşviq mexanizmi kimi

Özəl bölmənin dövlət dəstək alətlərindən biri də sahibkarlara güzəştli kreditlərin verilməsidir. İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun həmin güzəştli vəsaitləri əsasən qeyri-neft sektorunun inkişafı ilə bağlı investisiya layihələrinin

maliyyələşdirilməsinə yönəldilir. Təşviq mexanizmlərindən biri olan bu kreditlər sahibkarlıq subyektlərinin güzəştli maliyyə resurslarına çıxışını təmin etməklə ölkədə qeyri-neft sektorunun inkişafına, innovativ texnologiyalara əsaslanan yeni istehsal, emal və infrastruktur müəssisələrinin yaradılmasına, ixracyönümlü investisiya layihələrinin maliyyələşdirilməsinə və yeni iş yerlərinin açılmasına töhfə verib. Fondun gələcəkdə də müxtəlif maliyyə dəstəyi mexanizmləri vasitəsilə sahibkarların maliyyə əlçatanlığının artırılması istiqamətində fəaliyyətini davam etdirməsi məqsədəuyğundur. Bu, Azərbaycanda kiçik və orta biznesin davamlı və dayanıqlı inkişafı naminə mühün dövlət maliyyə dəstəyi mexanizmi kimi çox əhəmiyyətlidir. Fond ölkədə sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafında və işgüzarlığın artırılmasında əhəmiyyətli rola malikdir. Fond öz fəaliyyəti dövründə 42 minədək sahibkara 2,8 milyard manat güzəştli kredit verib [4]. 2015-ci ildə Fond tərəfindən maliyyələşdirilməsinə müsbət rəy verilmiş investisiya layihələri üzrə ümumi kredit tələbatının 198,057 milyon manatı (65%) regionlar üzrə olmaqla cəmi 305,384 milyon manat təşkil edib. Sonrakı illərdə fond tərəfindən sahibkarlara ayrılan kreditlərdə azalma müşahidə olunmuşdur. Belə ki, sahhibkarlara 2016-cı ildə 189,4, 2017-ci ildə 146, 2018-ci ildə 160.2, 2019-cu ildə 175, 2020-ci ildə 126.9, 2021-ci ildə 130.6 milyon manat güzəştli kreditlər verimişdir (cədvəl 1). [5].

**Cədvəl 1.**

**Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlara verilmiş güzəştli kreditlərin həcmi**

| **İllər və sahələr üzrə** | **2016** | **2017** | **2018** | **2019** | **2020** | **2021** |
|---|---|---|---|---|---|---|
| **Cəmi kreditlər, milyon manat** | 189,4 | 146 | 160.2 | 175 | 126.9 | 130.6 |
| **Layihələrin sayı** | 2350 | 1953 | 999 | 1 573 | 908 | 1 902 |
| **Sənaye məhsullarının istehsalı və emalı, milyon man.** | 33,5 | 33664 | 43 238 | 31,8 | 47,3 | 43,5 |
| **Layihələrin sayı** | 129 | 68 | 48 | 63 | 59 | 86 |
| **Kənd təsərrüfatı məhsullarının emalı, milyon man.** | - | - | - | 24,1 | 15,8 | 5.5 |
| **Layihələrin sayı** | - | - | - | 14 | 9 | 9 |
| **Kənd təsərrüfatı məhsullarının istehsalı, milyon man.** | 155,9 | 96,982 | 112,724 | 96,3 | 56,5 | 67.6 |
| **Layihələrin sayı** | 2221 | 1871 | 939 | 1450 | 824 | 1774 |
| **Turizmin inkişafı, milyon man.** | - | - | - | 9,9 | 0,7 | 4.1 |
| **Layihələrin sayı** | - | - | - | 14 | 7 | 9 |
| **Xidmət (infrastruktur) sahələrinin inkişafı, milyon man.** | - | - | - | 12,6 | 1,6 | 3.3 |
| **Layihələrin sayı** | - | - | - | 31 | 6 | 3 |
| **Digər (tibb, təhsil, KİV və s.) sahələr, milyon man.** | - | 15355 | 4,265 | 0,3 | 5 | 6.6 |
| **Layihələrin sayı** | - | **14** | **12** | **1** | **3** | **21** |

Mənbə: Sahibkarlığın İnkişafı Fondunun illik hesabatları əsasında hazırlanıb.
http://edf.gov.az/az/content/21. (07.11.2022).

Dövlətin güzəştli kreditlərinin hesabına sahibkarlar tərəfindən həyata keçirilən layihələrin nəticəsi olaraq məhsul və xidmətlər istehsalı ilə yanaşı, yeni iş yerləri də yaradılır. Belə ki, 2017-ci ildə 6591, 2018-ci ildə 8934, 2019-cu ildə 5363, 2020-ci ildə 2725, 2021-ci ildə 3213 yeni iş yeri yaradılmışdır. Bu isə biznesə dövlət dəstəyi mexanizminin iqtisadi səmərəsini göstərən göstəricilərdəndir. 2016-cı ildən başlayaraq sonrakı illərdə, 2021-ci il də

daxil omaqla Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlara verilən güzəştli kreditlərin həcmində orta hesabla 2 dəfə azalma müşahidə olunub. Habelə layihələrin sayında da azalma müşahidə olunur. Belə ki, əgər 2016-cı ildə 2350 layihəyə kredit ayrılmışdısa, 2021-ci ildə bu rəqəm 1902 təşkil edib. Fikrimizcə, bu, kreditlərə tələbin azalması və ya bazarın doyması ilə bağlı deyil. Əslində sahibkarların güzəştli kreditlərə daha çox ehtiyacı var, hətta özəl sektorun maliyyələşdirilməsində sərfəli şərtləri özündə ehtiva edən kreditlərə maliyyə əlçatanlığı başlıca problem olaraq qalır. Müsbət haldır ki, fond tərəfindən sahibkarların investisiya layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilməsi 2022-ci ildə də davam etdirilib. Belə ki, fond tərəfindən 2022-ci ilin 8 ayında sahibkarların 1732 layihəsinin maliyyələşdirilməsinə 72,1 milyon manat güzəştli kredit verilib. İqtisadiyyatın sahələri üzrə verilmiş kredit sayının 95,9 faizi kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, 2,7 faizi sənaye məhsullarının istehsalı və emalı, 0,4 faizi turizm,1 faizi isə digər sahələrin inkişafına yönəldilib. Kreditlərin məbləğ üzrə 71 faizi kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, 15-i sənaye məhsullarının istehsalı və emalı, 2 faizi turizm, 12 faizi isə digər sahələrin payına düşür. 2022-ci ildə iqtisadi artım meyilləri qeydə alınıb. İqtisadi artımın bərpa olunması ilə sahibkarların da dövlərin güzəştli kreditlərinə ehtiyacları artıb. Bunu nəzərə alaraq, Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlara ayrılan kreditlərin həcminin 2023-cü ildə ən azı 2 dəfə artırılaraq 300 milyon manata çatdırılması, kreditləşdirmənin iqtisadiyyatın sahələri üzrə əhatə dairəsinin genişləndirilməsi, girov şərtlərinin (məsələn, rayonlarda torpaq sahələrinin girov kimi qəbul edilməsi) yumşaldılması məqsədəuyğun olardı.

**Bank kreditlərinin faizlərinin subsidiyalaşdırılması təşviq mexanizmi kimi**

Covid-19 pandemiyası 2020-ci ilin əvvəllərindən başlayaraq ölkə iqtisadiyyatına mənfi təsir göstərsə də, həyata keçirilən kompleks tədbirlər o cümlədən, sahibkarlığın inkişafının dəstəklənməsi 2021-ci ilin birinci yarısından ölkədə iqtisadi aktivliyin bərpa olunmasında müsbət rol oynamışdır. Pandemiyadan zərər çəkmiş fəaliyyət sahələrinə investisiya qoyuluşlarının sürətləndirilməsi və bu fəaliyyət sahələri üzrə məşğulluğun qorunub saxlanması məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu sahibkarlara yeni verilən bank kreditləri üzrə dövlət zəmanətinin verilməsi və həmin kreditlər üzrə faizlərin subsidiyalaşdırılmasını, eləcə də mövcud kredit borcu olan sahibkarların kredit faizlərinin bir hissəsinin dövlət tərəfindən subsidiyalaşdırılmasını həyata keçirir. Faiz subsidiyası mexanizm fəaliyyət növü 2020-ci il 10 mart tarixinə pandemiyadan zərər çəkmiş sahələrin iqtisadi fəaliyyət növlərinə daxil olan sahibkarlıq subyektlərinə, zəruri ərzaq və ərzaqlıq buğda təchizatçılarına, eləcə də minimum istehlak səbətinin tərkibində əsas ərzaq məhsullarının tədarükü və emalı, aqrar emal ilə məşğul olan mikro, kiçik və orta sahibkarlara şamil edilir. Faiz subsidiyası müddəti və faiz dərəcəsindən asılı olmayaraq, məbləği hər bir sahibkarlıq subyekti üzrə 3 milyon manatadək olan kredit faizlərinin 10% bəndinə qədər hissəsinin 12 ayadək subsidiyalaşdırılmasını nəzərdə tutur. Bu mexanizm çərçivəsində aşağıdakı emal məhsullarının istehsalı ilə məşğul olan sahibkarların həmin fəaliyyət növləri üzrə xammal tədarükü ilə bağlı aldıqları kreditlər subsidiyalaşdırılır [6]: şəkər tozu istehsalı; günəbaxan yağı istehsalı; marqarin istehsalı; kərə yağı istehsalı; un istehsalı; makaron məmulatlarının istehsalı. 1 oktyabr 2022-ci il tarixinə mövcud kreditlər üzrə faizlərin subsidiyalaşdırılması mexanizmi ilə əlaqədar kredit qalığı 858,4 milyon manat olan 5035 müraciətə baxılaraq 70,4 mln. manat faiz subsidiyasının verilməsi barədə qərarlar qəbul edilib artıq 5009 kredit üzrə sahibkarlara 66,6 mln. manat faiz subsidiyası ödənilib [7].

Təşviq mexanizmi olan bank kreditlərinin faizlərinin subsidiyalaşdırılması əsas ərzaq məhsullarının tədarükü və emalı, aqrar emal ilə məşğul olan mikro, kiçik və orta sahibkarları əhatə edir. Həm də kretit faizləri 12 ayadək subsidiyalaşdırılır. Fikrimizcə, bank kreditlərinin faizlərinin subsidiyalaşdırılması taxıl və digər ərzaq təhlükəsizliyi üçün vacib olan ərzaq məhsullarının istehsalını da əhatə etməlidir. Bununla yanaşı, özünü doğrultmuş, effektiv biznes layihələri üzrə subsidiyaların vaxtının indiki 12 aydan 2 ilədək artırılması məqsədəuyğun olardı. Daha perspektivli, yeni texnologiyların tədiqini nəzərdə tutan, effektiv innovasiya yönümlü layihələri üzrə isə kredit faizlərinin tamamilə subsidiyalaşdırılması təklif olunur. Sahibkarlığın İnkişafı Fondu sahibkarlara avadanlıq krediti də verilir. Avadanlıq krediti - avadanlıqların girov qoyulması yolu ilə mövcud avadanlıqlarını yeniləmək və ya yeni avadanlıqlar əldə etmək istəyən sahibkarlıq subyektlərinə təqdim edilir. Avadanlıq kreditinin şərtləri bu şəkildədir [6]: kreditin məbləği - 5 min manatdan 3 milyon manatadək; faiz dərəcəsi - illik 9%-dək; kreditin müddəti - 5 ilədək; güzəşt müddəti - avadanlığın quraşdırılması üçün tələb olunan vaxt nəzərə alınmaqla, 12 ayadək. Bu təşviq mexanizmi biznesin dəstəklənməsi baxımından çox əhəmiyyətlidir. Bununla yanaşı, sahibkarların yeni texnogiyaların tətbiqinə stimullaşdırılması üçün avadanlıq kreditləri faizlərinin də tam subsidiyalaşdırılması təklif edilir.

**İnvestisiya təşviqi mexanizmləri**

Dövlət müxtəlif iqtisadi tənzimləmə alətləri vasitəsilə investisiyaları təşviq edir. Belə ki, ölkədə investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sənaye istehsalının artırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin "İnvestisiya təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 18 yanvar 2016-cı il tarixli Fərmanı, "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi qaydası"nın təsdiq edilməsi haqqında 20 aprel 2016-cı il tarixli Fərmanı və "İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri"nin təsdiq edilməsi haqqında" 20 aprel 2016-cı il tarixli Fərmanı imzalanmışdır. Bu fərmanlar əsasında dövlət tərəfindən investisiya təşviqi mexanizmi yaradılmış və müvafiq meyarlara uyğun sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxs və fərdi sahibkarların vergi və gömrük güzəştləri əldə etməsi üçün əlverişli şərait yaranmışdır [8]. İnvestisiya təşviqi sənədi həmin sənədin əldə olunduğu tarixdən etibarən 7 il müddətində Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş güzəştləri əldə etməyə əsas verən sənəddir. Bu güzəştlərə aiddir: mənfəət və ya gəlir vergisinin 50%-dən azadolma; torpaq və əmlak vergisindən tam azadolma; müvafiq təsdiqedici sənəd əsasında layihə çərçivəsində xaricdən idxal olunan texnika, texnoloji avadanlıq və qurğunun gömrük rüsumu və ƏDV-dən tam azadolma. 2022-ci ilin 1 mart tarixinədək 445 sahibkarlıq subyektinə 533 investisiya təşviqi sənədi təqdim edilmişdir. İnvestisiya təşviqi sənədi verilmiş layihələrin reallaşması nəticəsində yerli istehsala 4,8 milyard manatdan artıq investisiyanın yatırılacağı, 35,8 mindən çox yeni iş yerinin açılması nəzərdə tutulur. Təşviq edilmiş layihələrin 14%-i Bakı şəhəri və ətraf qəsəbələrin, 86%-i isə regionların payına düşür. Təqdim edilmiş investisiya təşviqi sənədlərinin 60,6%-i sənaye, 37,2%-i kənd təsərrüfatı, 1,1%-i logistika, 1,1%-i isə turizm sahələrində icra olunacaq layihələri əhatə edir. Həmçinin, ötən dövr ərzində investisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara layihə çərçivəsində texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün 4601 təsdiqedici sənəd verilmişdir. Eyni zamanda, 2022-ci ilin I rübü ərzində 10 sahibkarlıq subyektinə 10 investisiya təşviqi sənədi təqdim

edilmişdir. İnvestisiya təşviqi sənədi təqdim edilmiş layihələrin reallaşması nəticəsində yerli istehsala 58,4 milyon manat investisiyanın yatırılması və 588 yeni iş yerinin açılması planlaşdırılır. Eyni zamanda qeyd olunan dövr ərzində investisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara layihə çərçivəsində texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün 151 təsdiqedici sənəd verilmişdir. Müsbət haldır ki, təşviq edilmiş layihələrin əsas hissəsi regionların (86%-i) və sənayenin (60,6%-i) payına düşür. Bu, həm də hökumətin regionların sosial-iqtisadi inkişafı hədəflərinə və iqtisadiyyatın diversifikasiyası məqsədlərinə uyğundur.

**Onlayn ticarətin təşviqi**

KOB subyektlərinin məhsul və xidmətlərinin satışının təşkilində onlara gömək göstərilməsi, uğurlu onlayn ticarət platformalarının yaradılması da biznesin təşviq mexanizmi və ya təşviq alətlərindən biri sayıla bilər. Mikro, kiçik və orta biznes subyektlərinin məhsul və xidmətlərinin vahid platforma vasitəsilə tanıdılması və onlayn satışının həyata keçirilməsi üçün "e-commerce" konsepsiyası əsasında www.kobmarket.az platforması yaradılıb. Portal əsasən mikro və kiçik biznesin inkişafına dəstək olmaq, KOB subyektlərinin məhsul və xidmətlərinin vahid platforma üzərindən onlayn satışının təşkilinə dəstək məqsədilə formalaşdırılıb [9]. Portalda onlayn mağaza açmaq mümkündür. Burada sahibkarlar qısa müddətdə onlayn mağaza açaraq məhsullarını yerləşdirmək, məhsullar üzrə qalıqlar idarə etmək, müştərilərin təhlilini aparmaq, satış həyata keçirmək imkanları əldə edirlər. Habelə vahid ödəniş sistemindən və çatdırılma xidmətlərindən istifadə imkanı da var. www.kobmarket.az sahibkarların onlayn satış imkanları yaratmaqla yanaşı, ölkədə onlayn ticarətin inkişafına, KOB-ların və istehlakçıların rəqəmsallaşdırılması prosesinin sürətləndirilməsinə, eləcə də nağdsız ödənişlərin artırılmasına dəstək göstərilməsini hədəfləyir. Portalda qeydiyyatdan keçmiş sahibkarlar tərəfindən 90-dan çox onlayn mağaza yaradılmış və 1500-ə yaxın məhsul yerləşdirilmişdir. Bu portalın imkanlarından daha çox sahibkarın yararlanması, biznes subyektlərinin cəlb edilməsi və iştirakçıların əhatə dairəsinin genişləndirilməsi, elekton ticarətin həcminin artırılması nəzərdə tutulur. Mikro, kiçik və orta sahibkarlığın inkişafı üçün maliyyə mənbələrinə əlçatanlıq və bu çıxışın asanlaşdırılması, eləcə də investisiya fəaliyyətinin təşviq olunması vacibdir. Kiçik və orta biznesin (KOB-ların) investisiya təşəbbüsləri ətraflı təhlil olunmalı, onların reallaşdırılması üçün dövlətin dəstək mexanizmləri təkmilləşdirilməlidir. Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərdə KOB-lar və startaplar üçün yeni imtiyaz və güzəştlər nəzərdə tutulub, o cümlədən KOB klaster şirkəti anlayışı və müvafiq stimullaşdırıcı tədbirlər Məcəlləyə daxil edilib. Habelə KOB klaster şirkətinin və KOB klaster iştirakçılarının meyarları təsdiq olunub. Bu mexanizmin tətbiqi ilə müvafiq fəaliyyət istiqamətləri üzrə yaradılacaq KOB klaster şirkətləri 7 il müddətinə vergisiz fəaliyyət göstərəcək və ciddi imtiyazlardan istifadə edə biləcək. Bundan başqa, KOBİA tərəfindən startaplara veriləcək şəhadətnamə onları 3 il müddətinə gəlir və ya mənfəət vergisinden azad edəcək **[**10].

Azərbaycan Respublikası Prezidentinin 29 may 2019-cu il tarixli Fərmanı ilə təsdiq olunmuş “Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarının aparılması qaydası”nda özəl sektorun dəstəklənməsi baxımından təşviq mexanizmləri öz əksini tapıb. Bu dəstək mexanizmindən mikro, kiçik və orta sahibkarlıq subyektləri yararlana bilər. Rəqabətqabiliyyətli məhsul istehsalını təşkil etmək üçün keyfiyyətli şəkildə bazar araşdırmalarının aparılması vacibdir. Lakin bu, bunun üçün KOB-ların əlavə vəsait xərclərinə ehtiyac yaranır, çox vaxt buna imkan olmadığı üçün sahibkarların layihələrinin

reallaşdırılması mümkün olmur. "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarının aparılması qaydası"nın tətbiqi sayəsində mikro sahibkarlıq subyektinin müraciəti əsasında aparılan hər bir daxili bazar araşdırmasına çəkilən xərcin 80%-ni, kiçik sahibkarlıq subyektinin müraciəti ilə aparılan daxili bazar araşdırmasına çəkilən xərcin isə 50%-i dövlət tərəfindən qarşılanması nəzərdə tutulur. Bu, təşviqedici mexanizmlərdən biridir. Bu tip təşviq mexanimləri olsa da, praktiki olaraq startapların fəaliyyətində arzu edilən aktivlik, praktiki nəticələr, sənayedə, xüsuaən də emal sənayesində innovasiyaların aktiv tədbiqi müşahidə olunmur. Ona görə də, fikrimizcə, KOBİA tərəfindən kiçik və orta orta sahibkarlıq subyektləri üçün dəstək mexanizmləri ilə bağlı ödənişsiz maarifləndirici təlimlərin və seminarların təşkili, informasiya dəstəyinin artırılması faydalı ola bilər. Habelə startapların gəlir və ya mənfəət vergisinden azad edilməsi müsbət təşviq mexanizmi kimi qiymətləndirilməlidir. Bununla yanaşı, əlavə təşviq mexanizmi kimi, effektiv startap layihələrinin də kreditləşdirilməsində bank kreditlərinin subsidiyalaşdırılması təklif olunur.

**Biznesin təşviqi mexanizmlərinin iqtisadi səmərəsinin qiymətləndirilməsi**

Ölkədə həyata keçirilən uğurlu iqtisadi islahatların, dövlət tərəfindən həyata keçirilən biznesin təşviq mexanizmlərinin nəticəsidir ki, biznes mühiti yaxşılaşır, sahibkarların sayı artır, iqtisadiyyatda özəl sektorun rolu və payı yüksəlir. Belə ki, əgər 1995-ci ildə ölkədə ümumi daxili məhsulda qeyri-dövlət bölməsinin payı 30,3 faiz təşkil edirdisə, sonrakı illərdə artaraq 2000-ci ildə 70,8%-ə, 2005-ci ildə 77,8%-ə, 2010-cu ildə 81,7%-ə, 2019-cu ildə 85%-ə yüksəlmiş, 2021-ci ildə 83,5% təşkil etmişdir. 2020-ci ildə ildə əvvəlki ilə nisbətən 4,2% azalma baş versə də, 2021-ci ildə yenidən artım qeydə alınmışdır [11]. 2020-ci ildə azalmanın əsas səbəbi isə COVİD-19 pandemiyasının iqtisadiyyata, xüsusən də xəstəliklə əlaqədar olaraq həyata keçirilən məcburi qapanmalar nəticəsində özəl sektorun fəaliyyətinə mənfi təsiri ilə bağlıdır. Bu özünü daha çox sənaye, nəqliyyat, rabitə, sosial və digər xidmətlər sahəsində göstərib (cədvəl 2).

**Cədvəl 2.**

**Ümumi daxili məhsulda qeyri-dövlət bölməsinin payı (%)**

| | 1995 | 2000 | 2005 | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **ÜDM - cəmi** | 30,3 | 70,8 | 77,8 | 81,7 | 81,2 | 83,8 | 84,7 | 85,0 | 80,8 | 83,5 |
| **Sənaye** | 5,5 | 48,4 | 84,5 | 87,4 | 83,0 | 87,9 | 89,6 | 89,3 | 85,6 | 88,8 |
| **Tikinti** | 79,0 | 63,5 | 90,4 | 72,0 | 84,5 | 84,6 | 80,2 | 82,9 | 84,6 | 87,5 |
| **Kənd təsərrüfatı** | 61,5 | 99,0 | 97,8 | 99,7 | 99,8 | 99,9 | 99,9 | 99,9 | 99,9 | 99,9 |
| **Ticarət və xidmətlər** | 82,4 | 98,3 | 97,8 | 99,2 | 99,6 | 99,7 | 99,8 | 99,7 | 99,9 | 99,7 |
| **Nəqliyyat** | 4,6 | 62,6 | 37,5 | 75,3 | 81,7 | 82,4 | 83,1 | 83,4 | 80,1 | 84,8 |
| **Rabitə** | 10,0 | 57,8 | 80,2 | 78,6 | 81,0 | 81,2 | 82,0 | 82,4 | 80,8 | 81,5 |
| **Sosial və sair xidmətlər** | 24,1 | 78,8 | 31,8 | 47,0 | 57,8 | 56,1 | 56,4 | 60,0 | 51,0 | 52,5 |

Mənbə: https://www.stat.gov.az/source/system_nat_accounts/ 12.10.2022

1995-2021-ci illərdə iqtisadiyyatın bütün sahələrində özəl sektorun xüsusi çəkisinin artımı müşahidə edilmişdir. Belə ki, ÜDM-də özıl sektorun payı 1995-ci ildə sənayedə 5,5%-dən 2021-ci ildə 88,8%-ə, tikintidə 79%-dən 87,5%-ə, kənd təsərrüfatında 61,5%-dən 99,9%-ə, ticarət və xidmətlər sahəsində 82,4%-dən 99,7%-ə, nəqliyyatda 4,6%-dən 84,8%-ə, rabitədə 10%-dən 81,5%-ə, sosial və s. xidmətlər üzrə 24,1%-dən 52,5%-ə yüksəlmişdir. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin proqnozlarına görə, ÜDM-də özəl sektorun payı 2025-ci ilədək 88%-ə çatacaq. Ölkədə reallaşdırılan islahatların əsas hədəflərindən biri də biznes üçün daha əlverişli şərait yaratmaqdır. Bu məqsədlə müxtəlif təşviq müxanizmləri həyata

keçirilir. İlk növbədə yeni sahibkarlıq subyektlərinin yaradılması, qeydiyyatı prosedurları asanlaşdırılıb. Ölkədə elektron xidmətlərin, müasir texnologiyaların və mütərəqqi beynəlxalq təcrübənin tətbiqi nəticəsində Azərbaycanda sahibkarlıq subyektlərinin "bir pəncərə" sistemi tətbiq edilməklə qeydiyyatı sadələşdirilmişdir. Elektron xidmətlərin tətbiqi nəticəsində fiziki və hüquqi şəxslərin sahibkarlıq fəaliyyətinin onlayn rejimində qeydiyyatına şərait yaradılmışdır ki, bu da ölkədə sahibkarların sayının artmasına imkan vermişdir. Hətta dünyada ən əlverişli nümunələrdən biri sayılır. Belə ki, sahibkarlıq subyektlərinin cəmi bir prosedurla onlayn dövlət qeydiyyatına alınması üçün əlverişli şərait yaradılıb. Qeydiyyat prosedurlarının sayı 3-dən 1-ə, müddəti 3,5 gündən 0,5 günə endirilib, ilkin qeydiyyatla bağlı 90 manat təşkil edən xərclər ləğv olunub, prosedur tam ödənişsizdir.

Bu, təşviq yönümlü islahatın nəticəsi olaraq son illərdə ölkədə yeni sahibkarlıq subyektlərinin yaradılmasına maraq artıb, onların sayı nəzərəçarpan artmışdır. Belə ki, təkcə 2019-cu ildə 104 min, 2020-ci ildə isə 167,5 min yeni mikro, kiçik və orta sahibkarlıq subyektləri yaradılmışdır. Onların tərkibində mikro sahibkarlıq subyektləri mütləq üstünlük təşkil edir. Belə ki, 2020-ci ildə yeni qeydiyyata alınmış 167,5 sahibkarlıq subyektlərinin 99,88%-i və ya 167 271-i mikro sahibkarlıq subyektləridir. Bu isə onu deməyə əsas verir ki, ölkədə biznes mühitinin yaxşılaşdırılması və biznesin inkişafı üzrə təşviq mexanizmləri yeni mikro sahibkarlıq subyektlərinin yaradılmasını stimullaşdırmışdır. 2022-ci il yanvarın 1-i vəziyyətinə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 1 milyon 168 minə çatıb. Hər dörd fərdi sahibkardan üçü “Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq”, “Ticarət; nəqliyyat vasitələrinin təmiri”, “Nəqliyyat və anbar təsərrüfatı” və “Digər sahələrdə xidmətlərin göstərilməsi” sahələri üzrə qeydiyyatdan keçib. Sahibkarlıqla məşğul olmaq niyyətində olan fərdi sahibkarların əsas hissəsi Bakıda (27,9 faiz), Lənkəran-Astara (10 faiz), Qazax-Tovuz (7,5 faiz) və Mərkəzi Aran (6,9 faiz) iqtisadi rayonlarında qeydiyyata alınıb. Fərdi sahibkarların 78,6 faizini kişilər, 21,4 faizini isə qadınlar təşkil edir [3]. Qadınlar “Digər sahələrdə xidmətlərin göstərilməsi” fəaliyyət növündə mövcud sahibkarların ümumi sayının 31,5 faizini, “Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq” fəaliyyət sahəsində 24 faizini, “Ticarət; nəqliyyat vasitələrinin təmiri” fəaliyyət sahəsində isə 20,9 faizini təşkil edir. Sahibkar qadınların 30,5 faizi Bakıda, 10,1 faizi Lənkəran-Astara, 8,8 faizi Qazax-Tovuz, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyatdan keçib. Fərdi sahibkarların cins tərkibinin regionlar üzrə say bölgüsündən aydın olur ki, Gəncə-Daşkəsən və Qazax-Tovuz (hər biri 25 faiz), Bakı (23,4 faiz), Naxçıvan Muxtar Respublikası (23,2 faiz) və Lənkəran-Astara (21,8 faiz) iqtisadi rayonlarında qadın sahibkarların payı ölkə üzrə orta göstəricidən yuxarıdır. Özəlləşdirmənin nəticəsi olaraq və yeni yaradılan müəssisələrin hesabına

**Cədvəl 3.**

**Müəssisələrin mülkiyyət növlərinə görə bölgüsü (2021)**

| **Mülkiyyət növləri** | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Dövlət müəssisələri** | | Bələdiyyə müəssisələri | | Xüsusi müəssisələr | | ondan: | | | |
| | | | | | | Xarici müəssisələr | | Birgə müəssisələr | |
| **Sayı** | % | Sayı | % | Sayı | % | Sayı | % | Sayı | % |
| 10730 | **6,5** | **1738** | **1,1** | **151 511** | **92,4** | **12 885** | **7,9** | **3135** | **1,9** |

Mənbə: AR Dövlət Statistika Komitəsi.

Azərbaycanda dövlət müəssisələrinin sayı azalmış, xüsusi müəssisələrin sayı isə artmışdır. Bələdiyyə müəssisələri yaradılmışdır. 2021-ci il oktyabrın 1-nə olan vəziyyətə görə, ölkəmizdə mülkiyyət növləri üzrə bütün müəssisələrin 92,4%-i xüsusi (151511), 6,5%-i dövlət (10 730), 1,1%-i (1738) bələdiyyə müəssisələridir (cədvəl 3). Bu isə ölkə iqtisadiyyatında özəl sektorda müəssisələrin yüksək payından və mühüm rola malik olmasından xəbər verir [11]. Sahibkarlıq subyektlərinin fəaliyyətini düzgün təhlil etmək üçün mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları və mövcud vəziyyətinə diqqət yetirmək vacibdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 dekabr 2018-ci il tarixli 556 nömrəli Qərarı ilə "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları" təsdiq edilmişdir. Sahibkarlıq subyektlərinin mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid edilməsi meyarları onların işçilərinin siyahı sayı və illik gəliri əsasında müəyyən olunur (cədvəl 4).

**Cədvəl 4.**

**Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları**

| Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyaları | İşçilərinin orta siyahı sayı (nəfər) | İllik gəliri (ig) (min manat) |
|---|---|---|
| Mikro sahibkar | 1 - 10 | ig ≤ 200 |
| Kiçik sahibkar | 11 - 50 | 200 < ig ≤ 3 000 |
| Orta sahibkar | 51 - 250 | 3 000 < ig ≤ 30 000 |
| İri sahibkar | 251 və ondan yuxarı | 30 000 < ig |

Sözügedən meyarlara əsasən işçilərinin siyahı sayı 10 nəfər və ondan az və ya illik gəliri 200 min manat və ondan aşağı olan sahibkarlıq subyektləri mikro, işçilərinin siyahı sayı 11 nəfərdən 50 nəfərədək və ya illik gəliri 200 min manatdan 3.000 min manatadək olan sahibkarlıq subyektləri kiçik, işçilərinin siyahı sayı 51 nəfərdən 250 nəfərədək və ya illik gəliri 3.000 min manatdan 30.000 min manatadək olan sahibkarlıq subyektləri orta, işçilərinin siyahı sayı 251 nəfər və ondan yuxarı və ya illik gəliri 30.000 min manatdan yuxarı olan sahibkarlıq subyektləri iri sahibkarlıq subyektləri hesab edilir. İllik gəlirə hesabat ili ərzində təqdim edilmiş malların, görülmüş işlərin və göstərilmiş xidmətlərin dəyəri, həmçinin satışdankənar gəlirlər aid edilir. Meyarlara əsasən sahibkarların mikro, kiçik, orta və ya iri sahibkar kimi müəyyənləşdirilməsi üçün "işçilərin orta siyahı sayı" və "illik gəlir" meyar göstəricilərindən daha yüksək olanı əsas götürülür. Yeni yaradılan sahibkarlıq subyektlərinin mikro, kiçik, orta və ya iri sahibkarlar kimi müəyyənləşdirilməsində onların dövlət qeydiyyatına və ya vergi uçotuna alındığı tarixdən 1 (bir) il müddətində müəyyən edilmiş işçilərin say göstəricisi əsas götürülür. Sahibkarların mikro, kiçik, orta və ya iri sahibkarlara aid edilməsi Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə ötürülən həmin sahibkarlıq subyektləri haqqında məlumatlar əsasında müəyyənləşdirilir və il ərzində dəyişməz qalır. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 4-1-ci maddəsinin 3-cü hissəsinə əsasən sahibkarlığın tənzimlənməsi tədbirləri çərçivəsində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə yönəldilən dövlət dəstəyi və güzəştlər mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları əsasında həyata keçirilir. Beynəlxalq təcrübə araşdırılaraq müəyyən edilmiş yeni meyarlar həmin dəstək və güzəştlərin əhatə dairəsinin əhəmiyyətli dərəcədə genişlənməsinə imkan yaradır.

Ölkə üzrə sahibkarlıq subyektlərinin 99,6%-i kiçik və orta sahibkarlıq subyektləridir və onların əlavə dəyərin yaradılmasında, ixrac, məşğulluq və investisiyalarda payı artır. Bu isə

biznesin təşviq mexanizmlərinin iqtisadi səmərəsinin real göstəriciləridir. Ölkə iqtisadiyyatında yaradılmış əlavə dəyərdə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payı 2019-cu ildə 14,9%, 2020-ci ildə 16,7% təşkil edib. Qeyri-neft-qaz sektoru üzrə bu göstərici daha yüksəkdir və 2020-ci ildə 23,7% olub ki, onun da 9,9%-i mikro, 3,5%-i kiçik, 10,3%-i orta biznesin payına düşüb. Müəssisələrdə muzdla işləyənlərin 42,1%-i (qeyri-neft-qaz sektoru üzrə 43,8%-i) mikro, kiçik və orta sahibkarlıq subyektlərindədir. Sahibkarlıq subyektləri tərəfindən əsas kapitala yönəldilmiş investisiyalarda mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payı 23,2%-dir (qeyri-neft-qaz sektoru üzrə 11,5%). Fəaliyyətdə olan sahibkarlıq subyektlərinin 99,7%-i mikro, kiçik və orta sahibkarlardır (cədvəl 5). [11].

**Cədvəl 5.**

**Ölkə iqtisadiyyatında mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payı (%)**

| Göstəricilər | 2019 | | | | 2020 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | o cümlədən | | | Cəmi | o cümlədən | | |
| | | Mikro | Kiçik | Orta | | Mikro | Kiçik | Orta |
| Ölkə iqtisadiyyatında yaradılmış əlavə dəyərdə | 14,9 | 6,6 | 1,9 | 6,4 | 16,7 | 6,8 | 2,5 | 7,4 |
| *qeyri neft-qaz sektoru üzrə* | 24,6 | 11,0 | 3,2 | 10,4 | 23,7 | 9,9 | 3,5 | 10,3 |
| Müəssisələrdə muzdla işləyənlərin ümumi sayında | 43,7 | 5,3 | 11,2 | 27,2 | 42,1 | 4,9 | 11,1 | 26,1 |
| *qeyri neft-qaz sektoru üzrə* | 53,6 | 6,7 | 16,7 | 30,2 | 43,8 | 6,1 | 12,9 | 24,8 |
| Sahibkarlıq subyektləri tərəfindən əsas kapitala yönəldilmiş investisiyalarda | 21,0 | 3,2 | 3,0 | 14,8 | 23,2 | 8,4 | 3,3 | 11,5 |
| *qeyri neft-qaz sektoru üzrə* | 27,0 | 4,1 | 3,9 | 19,0 | 11,5 | 3,4 | 7,7 | 0,4 |
| Fəaliyyətdə olan sahibkarlıq subyektlərinin ümumi sayında | 99,6 | 96,4 | 2,2 | 1,0 | 99,7 | 96,9 | 1,9 | 0,9 |

Mənbə: ARDSK https://stat.gov.az/source/entrepreneurship/ . 05.10.2022

2020-ci ilin rəsmi statistikasına əsasən, fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı 316370-dir, o cümlədən ondan 33450-si və ya 10,57 faizi hüquqi şəxs, 282920-si və ya 89,43 faizi fərdi sahibkarlardır. Habelə sahibkarlıq subyektlərinin 91,94 faizini və ya 282920-sini mikro sahibkarlıq subyektləri təşkil edir. Yalnız hüquqi şəxs formasında cəmi 5943 kiçik sahibkarlıq subyekti, 2710 orta sahibkarlıq subyekti var. Bu isə Azərbaycan iqtisadiyyatında işçilərinin sayı 10 nəfərə qədər olan və illik dövriyyəsi 200 min manatdan az olan mikro sahibkarlıq subyektlərinin sayının yüksək xüsusi çəkiyə (92%-ə yaxın) malik olması deməkdir (cədvəl 6). [11]. Ölkədə reallaşdırılan islahatların əsas hədəflərindən biri də biznes üçün daha əlverişli şərait yaratmaqdır. Bu məqsədlə müxtəlif təşviq müxanizmləri həyata keçirilir. İlk növbədə yeni sahibkarlıq subyektlərinin yaradılması, qeydiyyatı prosedurları asanlaşdırılıb. Hətta dünyada ən əlverişli nümunələrdən biri sayılır. Belə ki, sahibkarlıq subyektlərinin cəmi bir prosedurla onlayn dövlət qeydiyyatına alınması üçün əlverişli şərait yaradılıb. Qeydiyyat prosedurlarının sayı 3-dən 1-ə, müddəti 3,5 gündən 0,5 günə endirilib, ilkin qeydiyyatla bağlı 90 manat təşkil edən xərclər ləğv olunub, prosedur

tam ödənişsizdir. Bu, təşviq yönümlü islahatın nəticəsi olaraq son illərdə ölkədə yeni sahibkarlıq subyektlərinin yaradılmasına maraq artıb, onların sayı nəzərəçarpan artmışdır.

**Cədvəl 6.**

**Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı**

| Göstəricilər | 2019 | | | 2020 | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | o cümlədən | | Cəmi | o cümlədən | |
| | | Hüquqi şəxslər | Fərdi sahibkarlar | | Hüquqi şəxslər | Fərdi sahibkarlar |
| Sahibkarlıq subyektlərinin ümumi sayı | 271304 | 31196 | 240108 | 316370 | 33450 | 282920 |
| faizlə | 100% | 11,5 | 88,5 | 100% | 10,57 | 89,43 |
| Mikro sahibkarlıq subyektlərinin sayı | 262622 | 22514 | 240108 | 307717 | 24797 | 282920 |
| faizlə | 100 | 8,6 | 91,4 | 100 | 8,06 | 91,94 |
| Kiçik sahibkarlıq subyekti olan müəssisələrin sayı | 5956 | 5956 | - | 5943 | 5943 | - |
| Orta sahibkarlıq subyekti olan müəssisələrin sayı | 2726 | 2726 | - | 2710 | 2710 | - |

Mənbə: ARDSK https://stat.gov.az/source/entrepreneurship/ . 05.10.2022.

Ölkədə biznes üçün yaradılmış əlverişli biznes mühiti və təşviq müxanizmləri yeni sahibkarlıq müəssisələrinin yaradılmasına təkan vermiş, onların sayının hər il artmasına şərait yaratmışdır. Belə ki, təkcə 2019-cu ildə 104 min, 2020-ci ildə isə 167,5 min yeni mikro, kiçik və orta sahibkarlıq subyektləri yaradılmışdır. Onların tərkibində mikro sahibkarlıq subyektləri mütləq üstünlük təşkil edir. Belə ki, 2020-ci ildə yeni qeydiyyata alınmış 167,5 sahibkarlıq subyektlərinin 99,88%-i və ya 167 271-i mikro sahibkarlıq subyektləridir [11]. Bu isə onu deməyə əsas verir ki, ölkədə biznes mühitinin yaxşılaşdırılması və biznesin inkişafı üzrə təşviq mexanizmləri yeni mikro sahibkarlıq subyektlərinin yaradılmasını stimullaşdırmışdır.

**Nəticə**

Aparılmış tədqiqatlar göstərir ki, Azərbaycan biznesin mövcud təşviqi mexanizmləri biznes mühitini yaxşılaşdırır, sahibkarlığın inkişafını stimullaşdırır və iqtisadi cəhətdən səmərəlidir, kəmiyyət və keyfiyyət dəyişiklikləri müşahidə olunur. Belə ki, ölkədə sahibkarlıq subyektlərinin sayı artır, iqtisadiyyatın müxtəlif sahələrində özəl sektorun xüsusi çəkisi artmaqla rolu yüksəlir, qeyri-neft sektorunda sahibakrlar tərəfindən istehsal olunan məhsul və xidmətlərin, ixrac məhsulunun həcmi çoxalır, sahibkarlar dəyər zəncirində birbaşa iştirak edir, iqtisadi artımın əsas aparıcı qüvvəsinə çevrilməklə yanaşı yeni iş yerləri yaradırlar. Nəticədə ölkədə biznes fəaliyyəti sosial-iqtisadi inkişafın əsas drayverlərindən birinə çevrilib. Həyata keçirilən kompleks tədbirlər pandemiyanın sahibkarlığın inkişafına təsirinin minimum səviyyəyə endirilməsinə imkan vermişdir. Bütövlükdə Azərbaycan iqtisadiyyatında özəl sektorun xüsusi çəkisi əhəmiyyətli həcmdə artmışdır. Ölkədə sahibkarlıq fəaliyyətinə iqtisadi artımın əsası kimi baxılır ki, bu da özəl sektorun bundan sonra da iqtisadiyyatın bütün sahələrində aparıcı qüvvə kimi çıxış edəcəyindən xəbər verir. Bunlarla yanaşı, ölkədə sahibkarlıq fəaliyyətinin davamlı və dayanıqlı inkişafı, təşviqlərin iqtisadi səmərəsinin artırılması üçün mövcud təşviq mexanizmlərinin təkmilləşdirilməsi ilə yanaşı yeni təşviq mexanizmlərinin formalaşdıdırılması vacibdir. Beynəlxalq təcrübəyə əsaslanaraq

Azərbaycanda biznesin təşviq mexanizmlərinin təkmilləşdirilməsi üzrə belə təkliflər irəli sürülür:

- Biznes mühitini tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilməsi;
- "Rəqabət Məcəlləsi"nin, "Dövlət-özəl tərəfdaşlığı haqqında" və "Post-konflikt ərazilərin sosial-iqtisadi inkişafı haqqında" qanunların qəbul edilməsi. Bu qanunlar özündə biznesin inkişafını təşviq edən mexanizmləri ehtiva etməlidir.
- Sahibkarlara tikintiyə icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma və əmlakın qeydiyyatı xidmətləri sahəsində dövlət tərəfindən müəyyən edilən xərclərin azaldaılması və biznesə xidmət keyfiyyətinin yaxşılaşdırılması;
- Mikro, kiçik və orta sahibkarların əlverişli maliyyə mənbələrinə çıxışının asanlaşdırılması;
- İşğaldan azad olunmuş ərazilərdə biznesin və investisiya fəaliyyətinin təşviqi;
- Qeyri-neft sektorunda yerli istehsalın, emal sənayesinin və ixracın dəstəklənməsi məqsədilə yeni təşviq mexanizmlərinin həyata keçirilməsi;
- KOBİA tərəfindən kiçik və orta orta sahibkarlıq subyektləri üçün dəstək mexanizmləri ilə bağlı ödənişsiz maariflələndirici təlimlərin və seminarların təşkili, informasiya dəstəyinin artırılması;
- Sahibkarların yeni texnogiyaların tətbiqinə stimullaşdırılması üçün avadanlıq kreditləri faizlərinin də tam subsidiyalaşdırılması;
- Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlara ayrılan kreditlərin həcminin 2023-cü ildə ən azı 2 dəfə artırılaraq 300 milyon manata çatdırılması; kreditləşdirmənin iqtisadiyyatın sahələri üzrə əhatə dairəsinin genişləndirilməsi, girov şərtlərinin (rayonlarda torpaq sahələrinin girov kimi qəbul edilməsi) yumşaldılması;
- Bank kreditlərinin faizlərinin subsidiyalaşdırılması ərzaq təhlükəsizliyi üçün vacib olan bütün zəruri ərzaq məhsullarının istehsalını əhatə etməlidir. Bununla yanaşı, özünü doğrultmuş, effektiv biznes layihələri üzrə subsidiyaların vaxtının indiki 12 aydan 2 ilədək artırılması;
- Daha perspektivli, yeni texnologiylarıın tədiqini nəzərdə tutan, effektiv innovasiya yönümlü layihələri üzrə isə bank kredit faizlərinin tamamilə subsidiyalaşdırılması;
- Startapların gəlir və ya mənfəət vergisinden azad edilməsi müsbət təşviq mexanizmi kimi qiymətləndirilməlidir. Bununla yanaşı, əlavə təşviq mexanizmi kimi, effektiv startap layihələrinin də kreditləşdirilməsində bank kreditlərinin tam subsidiyalaşdırılması faydalı olardı.

**Ədəbiyyat**

1."Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər". Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir. https://president.az/az/articles/view/50474

2."Azərbaycanda biznes mühiti – 2020: reallıqlar və perspektivlər". Monoqrafiya. AMEA İqtisadiyyat İnstitutu. Bakı, "Elm və Bilik" 2021, 120 s.

3. Fərdi sahibkarların sayı 1 milyon 168 mini ötüb. "Vergilər" qəzeti, 25 yanvar 2022. https://vergiler.az/news/economy/16683.html

4. Sahibkarlığın İnkişafı Fondunun yaradılmasından 30 il ötür. http://edf.gov.az/az/news/2697.

5.İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondunun illik hesabatları. http://edf.gov.az/az/content/21. 09.11.2022
6.İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondunun dəstək mexanizmləri mexanizmia+a-Çap et http://edf.gov.az/az/content/194. 09.11.2022.
7.70,4 milyon manat faiz subsidiyasının verilməsi barədə qərarlar qəbul edilib. https://biznes.az/704-milyon-manat-faiz-subsidiyasinin-verilmesi-barede-qerarlar-qebul-edilib-8620 . 21.10.2022.
8. İnvestisiya təşviqi mexanizmi. https://www.economy.gov.az/az/page/itm . 10.11.2022
9.Mikro və kiçik sahibkarlar üçün www.kobmarket.az onlayn satış portalı istifadəyə verilib. https://smb.gov.az/az/all-news/mikro-ve-kicik-sahibkarlar-ucun-wwwkobmarketaz-onlayn-satis-portali-istifadeye-verilib 10.09.2022
10. "Startap" şəhadətnaməsi. https://smb.gov.az/az/nav/startap-sehadetnamesi. 12.09.2022.
11.Azərbaycanda sahibkarlıq. AR Dövlət Statistika Komitəsinin məlumatları https://stat.gov.az/source/entrepreneurship/ . 05.10.2022

***Махир Хамза оглы Зейналов***

***Механизмы продвижения бизнеса в Азербайджане и оценка его экономической эффективности***

***Резюме***

*Целью исследования является анализ существующих механизмов стимулирования бизнеса в Азербайджане и оценка их экономической эффективности. В статье проанализировано государственное льготное кредитование как механизм стимулирования бизнеса, субсидирование процентов по банковским кредитам, механизмы стимулирования инвестиций, стимулирование онлайн-торговли в стране, а также механизмы стимулирования МСП. В статье в качестве метода исследования использованы методы статистического и сравнительного анализа, оценки, системного подхода, группировки и научного обобщения. В ходе анализа в исследовательской работе были использованы официальные статистические данные государства по существующим механизмам стимулирования бизнеса, отечественные и зарубежные официальные информационные источники, даны ссылки на экономическую литературу в данной области. Также оценивается экономическая эффективность механизмов продвижения бизнеса, даются выводы и предложения.*

***Ключевые слова:*** *бизнес-среда, предпринимательская деятельность, микро -, малые и средние предприятия, механизмы стимулирования, экономическая эффективность*

***Mahir Hamza Zeynalov***

***Mechanisms of business promotion in Azerbaijan and assessment of its economic efficiency***

***Summary***

*The purpose of the study is to analyze existing mechanisms of business promotion in Azerbaijan and evaluate their economic efficiency. The article analyzes preferential lending by the state as a business promotion mechanism, subsidizing interest rates on bank loans, investment promotion mechanisms, promotion of online trade in the country, as well as providing incentive mechanisms for SMEs. The paper used methods of statistical and comparative analysis, assessment, systematic approach, grouping and scientific generalization as a research method. In the course of the analysis in the research work, official statistical data of the state on the current mechanisms of business promotion, domestic and foreign official information sources were used, reference to economic literature in this area was made. Also, the economic efficiency of business promotion mechanisms was evaluated, conclusions and suggestions were made.*

***Keywords:*** *business environment, entrepreneurial activity, micro, small and medium enterprises, incentive mechanisms, economic efficiency*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 03.11.2022.***
***Çapa qəbul olunub: 10.11.2022.***